# Güvenlik Sorunu Duvarlarla Çözülmez



Azərbaycan Jurnalistlər Birliyi

Təhlükəsizlik problemi divarlarla həll edilə bilməz...

Dünən, 22:08

Yaşadığımız dövrdə yalnız silahlıları deyil, dinc əhalini də hədəf alan müharibə zonalarından gələn xəbərlər, fotoşəkillər və vəhşilik görüntüləri vicdanı olan hər kəsin ürəyini parçalayır. Milyonlarla məzlum insan Suriyada, Cənubi Sudanda, Nigeriyada, Ukraynanın Donbass bölgəsində, Şimali Malidə, Liviyada, Yəməndə, Orta Afrika Respublikasında və daha bir çox ölkədəki qanlı müharibələrdə həyatlarını davam etdirməyə çalışarkən, milyonlarla insan da Rohincada, Şərqi Türküstanda, Fələstində, Əfqanıstanda, Kəşmirdə, Moroda məruz qaldıqları zülm qarşısında həyatda qalmaq uğrunda mübarizə aparırlar. Beynəlxalq sülh və təhlükəsizliyi ən çox təhdid edən məsələlərin başında gələn terror isə hər il minlərlə məsum qanını tökməyə davam edir.
Belə bir şəraitdə bütün dünyanın əl-ələ verib sülh üçün səy göstərməsi lazım olduğu halda, daha çox silahlanmağa çalışması təəccüblüdür. Bunun ən böyük səbəbi isə fərdi, ictimai və cəmiyyətlər səviyyəsində baş verən mənəvi böhran, insanlar arasında artan nifrət, sevgisizlik, mənfəətpərəstlik və bütün dünyanı bürüyən inamsızlıqdır. Aclığı gündəlik həyatın bir parçası olaraq yaşayan Afrikanın belə bütün imkanlarını silah sənayesinə yönəltməsi bu vəziyyəti ortaya qoyan bariz nümunədir.
Təhlükəsizlik hazırda yalnız müəyyən ölkələrin deyil, bütün dünyanın ortaq problemidir. Ölkələr terrordan, müharibələrdən, cinayətkar təşkilatlardan özlərini qorumaq üçün milyardlarla dollar xərcləyərək geniş miqyaslı tədbirlər alırlar. Təəssüf ki, bəzi ölkələrin təhlükəsizlik üçün aldığı tədbirlər başqa ölkələr üçün inamsızlıq hissi yarada bilir. Müharibələri, münaqişələri, ölüm qorxusunu, avtoritar rejimlərin təzyiqini, iqtisadi çətinlikləri, yoxsulluğu və yaşadıqları inamsızlığı arxada qoyub təhlükəsiz və rahat yaşamaq üçün yola çıxan milyonlarla miqrantın bir çox ölkə tərəfindən təhlükəsizlik problemi olaraq qəbul edilməsi buna misaldır.
Sərhədlərə hörülən divarlar da bu gün bir çox ölkənin tətbiq etdiyi təhlükəsizlik tədbirlərindən biridir. Miqrantların əsas hədəfi olan Avropanın bir çox ölkəsi təhlükəsizlik məqsədi ilə sərhədlərinə divar hörüb. 2015-ci ilin sonunda Avropaya gələn miqrant sayının 1 milyonu keçəcəyi nəzərdə tutulur. Bir çox miqrant Türkiyə üzərindən Yunanıstana keçib, oradan da Avropaya getməyə çalışır. Sayları getdikcə artan miqrantların ehtiyaclarını ödəməkdə çətinlik çəkən Yunanıstan Meriçdəki quru sərhədinə tikanlı məftil çəkmə qərarı aldı. Bolqarıstan da Türkiyə üzərindən həyata keçirilən miqrasiyanın öz torpaqlarına sirayət etməməsi üçün 160 kilometrlik tikanlı məftil çəkdi. Şimali Afrikadan İtaliyanın cənub sahillərinə qaçqın axını isə fasiləsiz olaraq davam edir.
Ötən günlərdə qatarlarla Almaniyaya keçməyə çalışan miqrantlara qarşı Macarıstan və Xorvatiyanın göstərdiyi reaksiya bütün dünyada tənqid edildi. Macarıstan, Serbiya ərazisindən gələn miqrantların girişini qarşısını almaq üçün sərhədə divar hördü. Macarıstan indi də həmin divardan Xorvatiya ilə sərhədinə hörəcəyini bildirib. Əksəriyyəti Suriya, İraq və Əfqanıstandan gələn minlərlə miqrant əvvəlcə Aralıq dənizini keçərək Yunanıstana, sonra isə Serbiya ərazisindən Macarıstana çatır. BMT rəsmiləri bu vəziyyətdə əsl həll yolunun humanitar yardım olacağını, Suriya və İraqda şərait yaxşılaşmadıqca, Avropaya axının davam edəcəyini bildirirlər. BMT-nin miqrantların hüquqları üzrə xüsusi məruzəçisi Fransua Krepo məsələyə dair bunları bildirib: "Divarlar hörərək, göz yaşardıcı qazdan istifadə edərək və ya zorakılığa əl ataraq, həbs edərək, sığınacaq, qida, su kimi təbii ehtiyacları əldə etmələrinə mane olaraq, nifrət saçaraq, miqrantların Avropaya gəlməsini dayandırmaq mümkün deyil" [1]

Günümüzde yalnızca ellerinde **silah** tutanları değil **sivilleri** de vuran **savaşların** yaşandığı bölgelerden gelen haberler, **fotoğraflar** ve **vahşet** görüntüleri vicdanı olan herkesin yüreğini parçalıyor. **Milyonlarca mazlum** insan **Suriye'de**, **Güney Sudan'da, Nijerya'da, Ukrayna'nın Donbass bölgesinde, Kuzey Mali'de, Libya'da, Yemen'de, Orta Afrika Cumhuriyeti'nde** ve daha pek çok ülkedeki **kanlı** cephelerde yaşamlarını sürdürmeye çalışırken, **milyonlarcası** da **Rohingya, Doğu Türkistan, Filistin, Afganistan, Keşmir, Moro** gibi yerlerde maruz kaldıkları **zulüm** karşısında **hayatta kalma** mücadelesi veriyor. Uluslararası **barış ve güvenliği** en çok tehdit eden konuların başında gelen **terör** ise her yıl binlerce **masumun kanını dökmeye** devam ediyor.

***Azerbaycan'ın** haber sitesi Gündelik **Info 'da Adnan Oktar'ın** makaleleri yayınlanmaktadır.*

http://gundelik.info/index.php?newsid=4295

https://www.harunyahya.info/makaleler/guvenlik-sorunu-duvarlarla-cozulmez-67479